# ƏZİZ DOSTUMLA MACƏRALARIMDAN BİRİ...

**Narıngül Məlikova**
BDU-nun Filologiya fakültəsinin IV kurs tələbəsi
naringulmlikova@gmail.com

Deməli, o gün saat 11-də anam qapını açıb dedi ki, bəs bir nəfər gəlib məni soruşur, özü də bir o qədər aydın dildə danışmır, yəni ən azından anam onu çox da yaxşı başa düşməyib. Qalxıb bu gələnin kim olduğunu öyrənməmişdən öncə öz-özlüyümdə fikirləşdim ki, yəqin, mənim avropalı dostlarımdan biridir, çünki onlar Azərbaycan dilini çox da yaxşı bilmirlər. Amma onu da deyim ki, öyrənmək üçün əllərindən gələni edirlər. Nəysə, axır bu şeyləri fikirləşə-fikirləşə qapıya çatdım. Bir də nə görsəm, yaxşıdır? Bu mənim ən yaxın dostum olan Azərbaycan dilidir. Gördüm, kefi yaxşı deyil, soruşdum ki, bəs nə olub? Dedi ki, bundan artıq nə olmalı idi ki, anan məni tanımadı. Bu da azmış kimi ona nə qədər izah etdimsə də, sənin ən yaxın dostunam, məni başa düşmədi ki, düşmədi. Mən də ona dedim ki, eh mənim əziz dostum, gərək deyəydin ki, biz best friend-ik, onda başa düşərdi. Bunun üzərinə dostum heyrətlə mənə baxaraq bunun nə demək olduğunu soruşdusa da, mən söhbəti bir az başqa yerə çevirərək, həm də onun könlünü almaq üçün dedim ki, gəl gedib bir yerdə oturaq çay içək. Dostum da buna etiraz etmədi. Beləliklə, biz avtobus dayanacağına doğru addımladıq. Birdən dostumun mənim qoluma toxunduğunu hiss etdim, görünür, nəsə demək istəyirdi. Dedi ki, bəs burada bus stop yazılıb, bu nə deməkdir? Açığı bu məsələ haqqında danışmaq istəmədiyimdən, səmimi olmaq lazımdırsa, burda da söhbəti başqa istiqamətə doğru çəkdim və biz avtobusu gözləməyə başladıq. Elə bu anda yolun o biri tərəfindən birinin bizim durduğumuz dayanacağa doğru yaxınlaşdığını gördük. Birdən dostum dedi, bu qızın paltarının üzərində yazılan "my life, my rules" sözlərinin mənası nə deməkdir? Düzü, onun bunu soruşacağına şübhəm və bu dəfə də söhbəti başqa yerə yönəltməyə bəhanəm olmadığından əvvəldən, yəni qızı qarşı tərəfdə görəndən cavab fikirləşməyə başlamışdım. Odur ki, dedim: Bilirsən, mənim əziz dostum, orda yazılıb ki, mənim həyatım, mənim qanunlarım, yəni heç kim mənim həyatımı necə yaşayacağıma qarışa bilməz. İndi bir özün fikirləş ki, bunu mənim dediyim şəkildə o paltara yazıblar, səncə o zaman bu qız bu paltarı rahatlıqla geyinə bilərdimi? Əlbəttə ki, yox. Yəni biz hələ, buna hazır deyilik. Ona görə də orada mənim dediyim kimi yazılmayıb. Açığı dediklərimdən bir şey başa düşmədiyi hər halından bəlli olsa da, sevimli dostum dilim səsindəki özündənəminlik intonasiyasını nəzərə alaraq mənimlə razılaşdı. Elə bu anda yaxşı ki, avtobus gəldi və məsələnin dərinliyinə getmədən avtobusa minib çay içmək üçün yola düşdük. Yolda dostum çox böyük bir maraqla pəncərədən ətrafa baxır və yenə həmişəki kimi məni çıxılmaz vəziyyətə qoyan suallar verməyə davam edirdi. Bir azdan avtobus dayanacaqda dayandı və bir bəy avtobusa daxil oldu və avtobus sürücüsünə bu sualı verdi: "Abiciğim, bu otobüs azatlığa gidiyormu?" Avtobus sürücüsü də ona: "Hayır, abi, biz oraya gitmiyoruz"- deyə cavab verdi və sualı verən şəxs də avtobusadan düşdü. Tam o anda gözlədiyim sual güllə kimi yetişdi, dostum əvvəlcə o adamı ümumən də olsa, başa düşdüyünü, amma tam olaraq anlamadığı üçün hansı sualı verdiyini soruşdu. Sonra mən ona o adamın türk olduğunu və verdiyi sualı aydınlaşdırdım. Bunun üzərinə dilim məndən soruşdu ki, onda sürücü də yəqin ki, türkdür. Birdən avtobus sürücüsü gur səslə sərnişinlərə müraciət etdi: *"Qabaqda düşən olacaq?*" Bu sözlərdən sonra əlavə cavaba ehtiyac qalmamışdı. Dostum onun azərbaycanlı olduğunu anlamışdı, amma niyə bir az öncəki sərnişinə türkcə cavab verdiyini heç cür başa düşə bilmirdi ki, bilmirdi. Vəziyyəti düzəltmək naminə dedim ki, o çox bilikli adamdı ona görə. Bir azdan sərnişinlərdən biri sürücüyə səsləndi: "Şofer, astonofkada saxlayarsan". Bax belə, artıq növbəti suala taqətim qalmadığından dostuma dedim ki, elə burda da düşüb çayımızı içə bilərik, suallarını da orada verərərsən. Hərçənd düşəndən sonra bir az peşman oldum, amma

artıq iş-işdən keçmişdi. Biz yaxınlıqdakı bir kafeyə daxil olduq və menyunu istədik. Yəni əslində çay içəcəkdik, amma nəticə də çayı nə ilə içmək və ya əgər dostum ac idisə, nəsə yemək məsələsi də var idi. Bir azdan menyu gəldi, kaş ki, gəlməz olaydı. Vərəqləməyə başladım və qorxduğum başıma gəlmişdi..... Drumstick, steak, latte, chicken, ice cream və bu qəbildən olan bir çox başqa şeylər daha.....Və nəhayət, gözlənilən sual: "*Axı, mən bu yeməklərin heç birini tanımıram, indi biz nə yeyəcəyik?*" .....Bilirsən, əziz dostum, əslində sən bu yeməkləri tanıyırsan, sadəcə, təəssüf ki, bu yeməklər səni tanımırlar. Dostumun keyfinin qalmadığını görüncə nə deyə bilərdim. Dedim ki, bilirsən nə var, gedirik evə, onsuz da evdə də indi heç kim yoxdur. Mən də sənə keyfin istəyən bir çay dəmləyərəm, sonra da əla bir ət qızardaram, yeyərik, vəssəlam! Burda mənim dostuma yer yoxdursa, demək, elə mənə də yer yoxdur, dur getdik! Bu sözlərimdən sonra dostumun halı bir az yaxşılaşdı və bir yerdə evə yollandıq. Sonra? Sonra nə olacaq, orada nə demişdimsə onu da elədim. Özümü tərifləmək kimi olmasın, amma mən sözünün üstündə duran adamam...